To the attention of the UNESCO Intergovernmental Committee for the Safeguarding of the Intangible Cultural Heritage

The people of Azerbaijan are the creators of national and moral values associated with human morality, moral norms and views. National and moral values, which are the main indicator of a nation's existence, are its most valuable asset. Every nation has a system of national and moral values. National and spiritual values are our history, language, religion, traditions, culture, literature and art. It is the sacred duty of each of us to preserve these values.

Weddings, mourning ceremonies, holiday traditions, the values of Islam that promote human feelings constitute an important part of the culture of communities, our people. One of the invaluable roles of customs and traditions in the system of national moral values is related to the fact that each tradition has a certain cultural meaning. Our customs and traditions preserve the moral values created by each generation and this is why it is so important to transmit them to the new generation.

The month of Ramadan teaches people the principles of loving God, gives them the opportunity to test their willpower and endurance, directs them to be open-minded, honest. The month of Ramadan and iftar traditions play an important role in the life of Azerbaijani communities.

Iftar traditions are an integral part of culture in Azerbaijan and still exist today and are passed down from generation to generation. That is why our organization fully supports the inscription of these traditions to the UNESCO Representative List of the Intangible Cultural Heritage of Humanity by several countries together with Azerbaijan, and we ask you to help promote this element.

Sincerely yours,

Bullur Javadgizi

Chairperson

Promotion of Culture and National Traditions Public Union

"Mədəniyyətin və
Milli Ənənələrin Təbliği"
İctimai Birliyi

"Promotion of Culture
and National Traditions"
Public Union

Ünvan: Abşeron rayonu, Ceyranbatan qəsəbəsi, 20 Yanvar küç., ev 1, mən. 19
Telefon: (012) 344 54 93 (050) 755 55 42 E-mail: bullurcavadqizi@gmail.com

23.03.2022 MMƏT-17-21/142

**UNESCO-nun Qeyri-maddi
mədəni irsin qorunması üzrə
Hökumətlərarası Komitəsinə**

Azərbaycan xalqı insanın mənəviyyatı, əxlaqi normaları və baxışları ilə bağlı olan milli-mənəvi dəyərlərin yaradıcısı olan xalqdır. Xalqın mövcudluğunun əsas göstəricisi olan milli-mənəvi dəyərlər onun ən qiymətli sərvətidir. Hər bir xalq milli-mənəvi dəyərlər sisteminə malikdir. Milli-mənəvi dəyərlər bizim tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir. Bu dəyərləri qoruyub saxlamaq hər birimizin müqəddəs borcudur.

Bayram adət-ənənələri, toy, yas mərasimləri, islam dininin bəşəri hissləri təbliğ edən dəyərləri xalqımızın milli-mənəvi simasının aynası hesab edilir. Adət və ənənələrin milli mənəvi dəyərlər sistemində oynadığı əvəzsiz rollardan biri hər bir ənənənin müəyyən əxlaqi məna daşıması ilə bağlıdır. Adət və ənənələrimiz hər bir insan nəslinin yaratdığı əxlaqi dəyərləri qoruyub, yeni nəslə çatdırmaq vasitəsi kimi çıxış edir.

Ramazan ayı insanlara Allahı sevmək prinsiplərini öyrədir, onlara öz iradə qüvvələrini, dözümlüyünü yoxlamaq imkanı verir, onları gözüaçıq, təmiz vicdanlı olmağa yönəldir və oruc tutmaqla ifadə olunur. Ramazan ayı və iftar ənənələri Azərbaycan icmalarının həyatında mühüm yer tutur.

İftar ənənələri Azərbaycanda mədəniyyətin tərkib hissəsidir və bu gün də yaşamaqdadır və nəsildən nəslə ötürülür. Məhz buna görə təşkilatımız bu ənənələrin UNESCO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısına Azərbaycanla bir yerdə bir neçə ölkə tərəfindən təqdim edilməsini tamamilə dəstəkləyir və bu elementin tanıdılmasında köməklik göstərməyinizi xahiş edirik.

Hörmətlə,

"Mədəniyyətin və milli ənənələrin təbliği" İctimai Birliyi "Promotion of culture and national traditions" Public Union

**Büllur Cavadqızı
Mədəniyyətin və Milli Ənənələrin Təbliği
İctimai Birliyinin sədri**

To the attention of the UNESCO Intergovernmental Committee for the Safeguarding of the Intangible Cultural Heritage

Traditions of the Azerbaijani people, rich in ancient culture and based on moral values, have been formed throughout the centuries. Respect for the elder, mercy for the younger, receiving guests on holidays, giving gifts, reconciling grievances, sharing grief on sad and difficult days, helping each other and other humanistic values have been preserved and transmitted from generation to generation.

Being the last religion that the Creator has blessed us with, Islam has not only helped preserving the cultural identity of people in Azerbaijan, but also contributed to the spiritual, cultural and social enrichment of our communities. One of the teachings of Islam, which has been native to our people for centuries, is the month of Ramadan and the fasting performed during this month. This month, as in the whole Muslim world, is met with special attention in our country, is perceived as an expression of great culture. From this point of view, the tradition of Iftar for centuries has formed an important element of popular culture in Azerbaijan, showing the social significance of the month of Ramadan and playing a role in strengthening the consciousness of solidarity.

The traditions of Ramadan and Iftar help people get spiritually cleansed, become closer to the Almighty, and experience unity and solidarity, kindness and compassion.

Taking into account the role of the Iftar tradition in the cultural, social and spiritual life of communities in Azerbaijan, our public association supports the inclusion of this element of cultural heritage in the UNESCO Representative List of the Intangible Cultural Heritage of Humanity. We believe that this step will ensure the transmission of the Iftar traditions, which is an integral part of our culture.

Sincerely yours,

Solmaz Amirli

Chairperson

Aydınlığa doğru Public Union for the Protection of National and Moral Values

MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN QORUNMASI İCTİMAİ BİRLİYİ

Aydınlığa doğru
milli-mənəvi dəyərlərin qorunması ictimai Birliyi

PUBLİC UNİON ON PROTECTİON OF NATİONAL-MORAL VALUES

**UNESCO-nun Qeyri-maddi**
**mədəni irsin qorunması üzrə**
**Hökumətlərarası Komitəsinin diqqətinə**

Qədim zəngin mədəniyyətə malik olan Azərbaycan xalqının əxlaqi dəyərlərə söykənən adət -ənənələri əsrlərin süzgəcindən keçərək formalaşıb.Böyüyə hörmət, kiçiyə mərhəmət, bayram günlərində qonaq qəbul etmək, hədiyyə vermək, küsənləri barışdırmaq, kədərli və çətin günlərdə ağrı-acıya şərik olmaq, köməkləşmək və digər humanist dəyərlərlə çulğaşan xalqımız qədimdən bəri bu dəyərləri nəsildən-nəslə ötürərək qoruyub saxlamışdır.

Bəşəriyyətə Ulu Yaradanın son ərməğanı islam dini Azərbaycan xalqının milli kimliyini qorumaqla yanaşı, xalqımızın mədəniyyətini mənəvi-mədəni və sosial müstəvidə zənginləşməsinə öz töhfəsini vermişdir. İslamın xalqımızın çoxəsrlik keçmişində doğmalaşan, məhrəmləşən təlimlərindən biri də ramazan ayı və bu ayda yerinə yetirilən oruc ibadətidir. Bu ay bütün Müsəlman dünyasında olduğu kimi ölkəmizdə də xüsusi etina ilə qarşılanır, böyük bir mədəniyyətin xəlqiləşməsini ifadə edir. Bu baxımdan Ramazan ayının sosial əhəmiyyətini göstərən, həmrəylik şüurunun möhkəmlənməsində rol oynayan iftar ənənəsi Azərbaycan xalq mədəniyyətinin əsrlərdir özünü isbatlamış tərəfini əmələ gətirir.
Ramazan və iftar ənənəsi insanların ruhən təmizləndiyi, Uca Allaha yaxınlaşdığı, birlik və bərabərliyin, xeyirxahlıq və şəfqətin yaşandığı ənənədir.

İftar ənənəsinin inanclı Azərbaycan xalqının mədəni-sosial və mənəvi həyatında oynadığı rolu nəzərə alaraq, ictimai birliyimiz bu mədəni irs nümunəsinin UNESCO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısına daxil edilməsinə dəstək verir. İnanırıq ki, bu addımla mədəniyyətimizin ayrılmaz hissəsi olan iftar ənənəsi digər milli-mənəvi ənənələrimiz kimi mühafizə olunacaq və onun sonrakı nəsillərə ötürülməsi təmin ediləcəkdir.

**Hörmətlə,**

**Solmaz Əmirli**
**"Aydınlığa doğru"**
**milli-mənəvi dəyərlərin qorunması**
**İctimai Birliyinin sədri**

AZƏRBAYCAN RESPUBLİKASI BAKI ŞƏHƏRİ
Aydınlığa doğru
milli və mənəvi dəyərlərin qorunması İctimai Birliyi

To the attention of the UNESCO Intergovernmental Committee for the Safeguarding of the Intangible Cultural Heritage

As you know, Iftar traditions, which are excellent examples of the intangible cultural and religious heritage of Azerbaijan and other peoples, have been submitted for inscription into the Representative List of the Intangible Cultural Heritage of humanity.

The traditions of the month of Ramadan and iftar serve to strengthen solidarity and religious and spiritual unity. Iftar traditions play an important role in the culture of all Muslim communities. Universal values such as gathering around a table promoted by these traditions, spiritual unity, equality, and inclusion are immortal and will continue to live.

The holy month of Ramadan has always lived in the heart of communities in Azerbaijan. Islamic values are an integral part of our national and spiritual values. Azerbaijan is a country where people of all religions live as one family, and this is a great wealth.

In this regard, we support the inclusion of Iftar traditions in the UNESCO Representative List of the Intangible Cultural Heritage of Humanity, and we ask UNESCO to approve this initiative.

Kind regards,

Tahir Amiraslanov

Chairperson of World Islamic Culinary Public Union

DÜNYA İSLAM ÜLKELERİ AŞÇILAR DERNEKLERİ PLATFORMU
المنتدى العالمي لجمعيات الطهي في الدول الإسلامية
Всемирная Кулинарная Организация Исламских стран

24.03.2022, Baku

**Number:** 2022/5

**UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin diqqətinə**

Bildiyiniz kimi, Azərbaycan və digər xalqlarının qeyri-maddi mədəni və dini irsinin gözəl nümunələrindən olan iftar ənənələri Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısına salınması üçün təqdim edilmişdir.

Ramazan ayı və iftar ənənələri həmrəyliyin, dini-mənəvi birliyin möhkəmləndirilməsi işinə xidmət edir. İftar ənənələri bütün müsəlman icmalarının mədəniyyətində mühüm rol oynayır. Bu ənənələrin təşviq etdiyi bir süfrə ətrafında toplaşma, mənəvi birlik, bərabərlik, inklüzivlik kimi ümumbəşəri dəyərlər ölməzdir və bundan sonra da yaşayacaqdır.

İslam dəyərləri bizim milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir və müqəddəs ramazan ayı bütün dövrlərdə Azərbaycan xalqının da qəlbində yaşamışdır. Azərbaycan o ölkədir ki, burada bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır və bu böyük bir sərvətdir.

Bununla əlaqədar iftar ənənələrinin UNESCO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısına daxil edilməsini dəstəkləyir və UNESKO-dan bu təşəbbüsə razılıq verilməsini xahiş edirik.

Hörmətlə,

**Tahir Əmiraslanov**
**Dünya İslam Kulinariya Birliyi Platformasının Prezidenti**

Matbuat Av. 2A-504 Az1073, Baku / AZERBAIJAN
Tel: +994 12 537 01 35 - Fax: +994 12 493 51 89
www.wicsglobal.org - info@wicsglobal.org

To the attention of the UNESCO Intergovernmental Committee for the Safeguarding of the Intangible Cultural Heritage

One of the most beautiful moments of the month of Ramadan is the meals shared on the occasion of the end of the fast on that day, that is, the time of iftar. The tradition of eating together and feeding the poor is an ancient one that existed before Islam and later manifested itself during iftar.

Communities in Azerbaijan celebrate iftar traditions are an integral part of their culture. Iftar dinners and invitations are very important in our culture. Preparations are made a few hours before Iftar, and tables are set. Iftar tables are different from everyday meals. Independently from the economic situation, every family must invite guests to Iftar during Ramadan.

Iftar begins with the recitation of the evening call to prayer and drinking water. People usually take light food to start with. It can be honey, cheese, olives, cream, walnuts or jam. As the stomach has been empty the whole day, it makes sense not to immediately load it. After the evening prayer, cold snacks and hot meals are served. Fasting and breaking the fast are a time when the consciousness of unity is strengthened, when people help each other and help and listen to their bodies.

Iftar traditions are still alive and passed down from generation to generation. In this regard, given the importance of this cultural heritage, we support its inclusion in the UNESCO Representative List of the Intangible Cultural Heritage of Humanity, and ask the UNESCO Intergovernmental Committee for the Safeguarding of the Intangible Cultural Heritage to give a positive opinion on this initiative.

Best regards,

Jeyran Asgarova

Director of the Azerbaijan Culinary Association PU

**AZƏRBAYCAN MİLLİ KULİNARİYA ASSOSİASİYASI**
**AZERBAIJAN NATIONAL CULINARY ASSOCIATION**

**Az 1073, Bakı ş. Mətbuat pr. 2A,504 məh.**
**Az 1073,2A/504, Matbuat av., Baku**

**Tel: (+994) 12 537-01-35**
**Fax: (+994) 12 537-01-35**
**Mail: kulina-58@mail.ru**


**№ 14** **«15» mart 2022-ci il**

**UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin diqqətinə**

Ramazan ayının gözəl anlarından biri həmin gün tutulan orucun sona çatması münasibətilə yeyilən yemək, yəni iftar vaxtıdır. Birlikdə yemək və yoxsulları doyurmaq həm də qədim bir ənənəsidir ki, İslamdan əvvəl də mövcud olub və sonraları iftar zamanı belə özünü göstərir.

İftar ənənələri Azərbaycan mədəniyyətinin tərkib hissəsidir. Mədəniyyətimizdə iftar süfrələri və dəvətləri çox önəmlidir. İftardan bir neçə saat əvvəl hazırlıqlar görülür, süfrələr açılır. İftar masaları gündəlik yeməklərdən fərqli olur. İqtisadi durumu necə olursa olsun, Ramazan ayında hər ailə iftara mütləq qonaq çağırır. Hər kəsin süfrəsi bu ay bol olur.

İftar dəvətləri 3-4 gündən sonra başlayır. Çünki Ramazanın ilk günləri maddi və mənəvi alışma müddəti olduğundan hər kəs sadəcə ailəsi ilə birlikdə orucu açır. İftar axşamın məğrib azanının oxunması və su içməklə başlanır. Sonra pendir, zeytun, qaymaq, bal, qoz, mürəbbə kimi yüngül yeməklər yeyilir. Orucun belə açılmasının səbəbi bütün gün ac qalmış boş mədəni dərhal yükləməmək üçündür. Qılınan axşam namazından sonra soyuq qəlyənaltı və isti yeməklərə keçilir. Oruc tutmaq və iftar açmaq kimi gözəl anlar birlik şüurunun gücləndiyi, ictimai həmrəylik və yardımlaşmanın olduğu, bədənin, xüsusən mədənin dinləndiyi bir zamandır.

İftar ənənələri hal-hazırda da yaşadılır və nəsildən nəslə ötürülür. Bununla əlaqədar bu mədəni irsin əhəmiyyətini nəzərə alaraq, onun UNESCO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısına daxil edilməsini dəstəkləyir və UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsindən bu təşəbbüsə müsbət rəy verilməsini xahiş edirik.

**Hörmətlə,**

**Ceyran Əsgərova**
**Azərbaycan Milli Kulinariya Assosiasiyası ictimai birliyinin icraçı direktoru**

AZƏRBAYCAN MİLLİ KULİNARİYA ASSOSİASİYASI
AZERBAIJAN NATIONAL CULINARY ASSOCIATION
BAKU
BAKI

To the attention of the UNESCO Intergovernmental Committee for the Safeguarding of the Intangible Cultural Heritage

Let us greet you on behalf of the "Damla" Public Union for Care for Low Provided families and wish you success in your work.

Our public union has been operating as a charitable organization since 2010 and has been involved in the charitable activities based on the guidelines outlined by the state and opportunities given to non-governmental organizations in this sense. Our organization has been involved in providing clothing, food, education, etc. to meet the needs of the people, students with disabilities, the elderly and those seriously ill. The projects we organize reflect our rich culture, traditions and values, cultural heritage.

The communities in Azerbaijan have a very rich culture. Rituals, weddings ceremonies, as well as Islamic values are an integral part of our culture. Communities in Azerbaijan respect cultural and moral values which have long been passed down from generation to generation – care for the elderly, hospitality, unity, reconciling grievances, sharing pain in sad and difficult days, as well as helping the poor.

The last gift of the Almighty is the Islam. It has contributed to the enrichment of the culture of our people spiritually, culturally and socially. The month of Ramadan and the fasting performed during this month are one of the pillars of Islam. This month is celebrated with special attention in our country, demonstrating a rich culture around it. The iftar traditions show the social significance of the month of Ramadan and play a crucial role in strengthening solidarity and cultural identity of the Azerbaijani communities.

The traditions of Ramadan and Iftar are the traditions of being spiritually cleansed. People feel closer the God, show unity and equality, kindness and compassion. Every year, during the holy month of Ramadan, Iftar dinners are organized for low-income families and orphans in Baku and the regions. Poor families are provided with a monthly food package for iftar. On the day of the Ramazan bayrami, sweets are served and a fun, gift-giving event is held for children, with the support of our partners in Baku and the regions.

Given the role of the Iftar traditions in the cultural, social and spiritual life of communities in Azerbaijan, our association supports the inclusion of this example of cultural heritage in the UNESCO Representative List of the Intangible Cultural Heritage of Humanity. We believe that this step will preserve the Iftar traditions, which are an integral part of our culture, as well as other cultural traditions, and ensure their transmission to future generations.

Best regards,

Abdullayeva Nigar

Chairperson of the Damla Public Union for Care for Low Provided families

AZTƏMİNATLI AİLƏLƏRƏ
QAYĞI İCTİMAİ BİRLİYİ

DAMLA

PUBLIC UNION FOR CARE
FOR LOW PROVIDED FAMILIES

**№ 364** **«28» mart 2022-ci il**

**UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə**
**Hökumətlərarası Komitəsinin diqqətinə**

Sizi, "Damla" aztəminatlı ailələrə qayğı İctimai Birliyi adından salamlayır, işlərinizdə uğurlar diləyirik.

Məlumat olaraq bildirək ki, 2010-cu ildən etibarən xeyriyyə qurumu olaraq fəaliyyətdə olan İctimai Birliyimizin işi dövlətimizin xeyriyyəçilik fəaliyyətinə və bu istiqamətdə qeyri-hökümət təşkilatlarına verilən səlahiyyətlərə əsasən, xeyirsevərlərin dəstəyi ilə imkansız ailələrə, bir və ya hər iki valideyn himayəsindən məhrum uşaqlara, fiziki əngəlli insanlara, imkansız tələbələrə, təhna ahıllara, ağır xəstələrə ehtiyaclarına uyğun olaraq geyim, ərzaq, təhsil və s. kimi yardımların göstərilməsi üzrə xeyriyyə layihələrinin təşkili və geniş tətbiqini əhatə edir. Təşkil etdiyimiz layihələr tarixi irsimiz olan zəngin mədəniyyətimizi, adət-ənənələrimizi, dəyərlərimizi özündə əks etdirir.

Azərbaycan xalqı çox zəngin mədəniyyətə sahibdir. Bayram adət-ənənələri, toy və yas mərasimləri, islam dəyərləri mədəniyyətimizin tərkib hissəsidir. Əxlaq aşılayan, tərbiyə edən milli-mənəvi dəyərlərimiz - böyüyə hörmət, kiçiyə mərhəmət, bayram günlərində qonaq qəbul etmək, hədiyyə vermək, küsənləri barışdırmaq, kədərli və çətin günlərdə ağrı-acıya şərik olmaq, köməkləşmək və digər humanist dəyərlərlə çulğaşan xalqımız qədimdən bəri bu dəyərləri nəsildən-nəslə ötürərək qoruyub saxlamışdır.

Bəşəriyyətə Ulu Yaradanın son ərməğanı islam dini Azərbaycan xalqının milli kimliyini qorumaqla yanaşı, xalqımızın mədəniyyətini mənəvi-mədəni və sosial müstəvidə zənginləşməsinə öz töhfəsini vermişdir. İslamın xalqımızın çoxəsrlik keçmişində doğmalaşan, məhrəmləşən təlimlərindən biri də Ramazan ayı və bu ayda yerinə yetirilən oruc ibadətidir. Bu ay bütün Müsəlman dünyasında olduğu kimi ölkəmizdə də xüsusi etina ilə qarşılanır, böyük bir mədəniyyətin xəlqiləşməsini ifadə edir. Bu baxımdan Ramazan ayının sosial əhəmiyyətini göstərən, həmrəylik şüurunun möhkəmlənməsində rol oynayan iftar ənənəsi Azərbaycan xalq mədəniyyətinin əsrlərdir özünü isbatlamış tərəfini əmələ gətirir.

Ramazan və iftar ənənəsi insanların ruhən təmizləndiyi, Uca Allaha yaxınlaşdığı, birlik və bərabərliyin, xeyirxahlıq və şəfqətin yaşandığı ənənədir. Fəaliyyətimiz ərzində hər il ənənəvi olaraq mübarək Ramazan ayında Bakı və bölgələr üzrə İctimai Birliyimizin qeydiyyatında olan aztəminatlı ailələr və bir və ya hər iki valideynini itirmiş balalarımız üçün iftar süfrələri təşkil olunur, ehtiyaclı ailələr sahur və iftar üçün aylıq ərzaq paketi ilə təmin olunurlar, uşaqlara ayrıca bayram şirniyyatları verilir və bayram günü Bakıda və bölgələr üzrə nümayəndələrimizin dəstəyi ilə uşaqlar üçün əyləncəli, hədiyyəli bayram tədbiri keçirilir. Birlik, bərabərlik, bərəkət və şəfgət rəmzi olan iftar ənənəsi xalqımız tərəfindən çox sevilir və önəmsənir.

İftar ənənəsinin inanclı Azərbaycan xalqının mədəni-sosial və mənəvi həyatında oynadığı rolu nəzərə alaraq, ictimai birliyimiz bu mədəni irs nümunəsinin UNESCO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısına daxil edilməsinə dəstək verir. İnanırıq ki, bu addımla mədəniyyətimizin ayrılmaz hissəsi olan iftar ənənəsi digər milli-mənəvi ənənələrimiz kimi mühafizə olunacaq və onun sonrakı nəsillərə ötürülməsi təmin ediləcək.

Hörmətlə,
Damla İ.B. sədri: Abdullayeva Nigar

www.damla.org.az
e-mail: damla.ib.2010@gmail.com
Tel.: (+99412) 513 95 74
Mob.: (+99450) 351 11 44